


# QƏDİM VƏ HƏR ZAMAN MÜASİR GƏNCƏ

## *Prezidentimizin çoxsaylı səfərləri ölkəmizin tarixi ilə yanaşı, indiki qüdrətini də əks etdirən bu şəhərin inkişafı üçün mühüm əhəmiyyət daşıyır*

**Strateji baxımdan olduqca əhəmiyyətli mövqeyə sahib olan Gəncə şəhərinin, sənaye və tikinti potensialının genişləndirilməsi və gücləndirilməsi məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, Ulu Öndərin Azərbaycana rəhbərliyi dövründə (1969-1983) Gəncədə artıq sənaye yönümlü bir sıra geniş layihələr reallaşdırıldı, iri sənaye obyektləri, ticarət mərkəzləri istifadəyə verildi. Şəhərdə yaşıllıqlar salınması, daşlı-kəsəkli böyük ərazidə "Xatirə" parkının genişləndirilməsi, nadir ağacların əkilməsi, suvarmanın təminatı, Gəncəyə xas olan abidələrin yerləşdirilməsi, Yeni Gəncə yaşayış massivinin, Alüminiumçular və Gülüstan qəsəbələrinin reallaşdırılması, səhiyyə, mədəniyyət və idman obyektlərinin inşası məhz böyük şəxsiyyətin təşəbbüsünün və fəaliyyətinin bariz nümunəsidir. Həmin vaxtdan 45 ildən çox keçib. İndi "Xatirə" parkı elə Türk dünyasının fenomeni, əbədiyaşar ümummilli lider Heydər Əliyevin adını daşıyır. Burada ulu öndərin özü əkdiyi çinar ağacları möhtəşəmliyi ilə diqqət çəkir. O çinarlar ki, Heydər Əliyevin Gəncəyə səfərlərinin yadigarlarıdır... Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəlişi ilə (1993-2003-cü illər) Gəncənin tarixinə yeni dirçəliş, inkişaf dövrü kimi yazıldı.**

**Ulu öndər Heydər Əliyev 2003-cü il prezident seçkilərində xalqa müraciətində demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bəli, böyük uzaqgörənliklə hazırlanmış inkişaf strategiyası ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən daha da genişləndirildi və müasirləşdirildi. İlham Əliyevin Gəncəyə hər bir səfəri şəhərin sosial-iqtisadi həyatında böyük rol oynadı. Məhz, onun şəxsi nəzarəti nəticəsində Gəncə simasını dəyişdi, yeniləşdi, gözəlləşdi və müasirləşdi. Praqmatik dövlət başçısı cənab İlham Əliyev ilk səfərində yolların bərpası, abadlaşdırılması, şəhərdə iri layihələrin sürətləndirilməsi və digər tapşırıqlarını verdi. Demək olar ki, Gəncənin inkişafında yeni dövr başladı. Ölkə başçısı növbəti səfəri zamanı demişdir: "Mən çox şadam ki, burada gedən işlər yüksək səviyyədədir. Gəncənin bütün əhalisi də bu quruculuq işlərinə qoşulur. Əsas odur ki, görülən işlər xalq tərəfindən dəstəklənir. Bu, məni çox sevindirir. Ona görə Gəncəyə və burada gedən işlərə kömək etmək mənim üçün çox xoşdur. Kömək o yerə edilir ki, orada bundan səmərəli istifadə olunur, insanlar ürəklə işləyir, öz əməyi ilə, fəaliyyəti ilə yeni binalar tikir, xiyabanlar, parklar salırlar. İndiki mərhələdə, ölkəmiz öz inkişaf dövrünü yaşadığı bir vaxtda, əlbəttə, mən istəyirəm ki, Azərbaycanın hər bir guşəsi bu inkişafdan bəhrələnsin".**

Ölkə Prezidentinin verdiyi tövsiyə və tapşırıqlar sürətlə və keyfiyyətlə icra olundu. Dünyanın ən yüksək standartlarına cavab verən Gəncə Beynəlxalq Hava Limanı istifadəyə veridi. Beynəlxalq standartlara uyğun Qapalı üzgüçülük hovuzu, "Jarden Royal" şirniyyat müəssisəsi, "Gəncə Mall" Ticarət Mərkəzi, Gəncə Müalicə-Diaqnostika Mərkəzi, Gəncə Polad Kompleksi və Det-Al Alüminium zavodu inşa edildi, "Gəncə Sənaye-Cihaz" ASC yenidən quruldu. Gəncə üçün çox vacib olan dünya standartlarına uyğun "Ramada Plaza", "Majestic Palace" mehmanxanaları istifadəyə verildi. Möhtəşəm musiqili fəvvarə və Gəncə gerbinin bərpa olunması şərəfinə monumental abidə ucaldıldı. Hamının çoxdan arzuladığı Qədim Gəncə darvazası ilkin şəkildə bərpa olundu. Bu görülən iri layihələr eyni zamanda ölkə Prezidentinin qeyri-neft sektorunun inkişafına yönəlmiş siyasətinin real nəticəsi və bariz nümunəsi olmaqla, vətəndaşların rifahına yönəldilmişdir. Ümumiyyətlə, Gəncənin əsas infrastruktur layihələrinin böyük əksəriyyəti öz həllini tapmışdır. Belə ki, elektrik enerjisi ilə təchizat məsələsi də həll olunub. Gəncədə 10 yarımstansiya həm yenidən tikilib, həm də əsaslı təmir edilib. Onların enerji istehsal gücü 220 meqavatdır, şəhərin tələbatını tam ödəyir. Eyni zamanda, şəhərin artan tələbatı, o cümlədən sənaye potensialı da nəzərə alınmışdır. Qazlaşdırma layihəsi tam icra olunmuşdur. Çox genişmiqyaslı və maliyyətutumlu layihələrdən olan içməli su təminatı icra olunmaqdadır. Sakinlərin rahatlığı üçün demək olar ki, münbit şərait yaradılmışdır. Şəhərin müəyyən hissəsi artıq içməli su ilə təmin olunub, çəkiliş davam edir. Ümummilli lider Heydər Əliyevin "Yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir" fikri Azərbaycanın dövlət başçısının yol təsərrüfatının inkişafına nə qədər böyük önəm verdiyini bir daha təsdiqləyir. Belə ki, Gəncədə şəhərdaxili yollar genişlənib, demək olar ki, asfaltlaşıb. Gəncəyə giriş-çıxış yolları isə tam müasirləşdirilib. Həm Bakı-Gəncə avtomobil yolunun, həm də Gəncə-Qazax-Gürcüstan sərhəd yolunun çəkilişi başa çatıb. Gəncədən digər şəhərlərə - Göygöl, Daşkəsən şəhərlərinə gedən yollarda da əsaslı təmir işləri aparılmış, işıqlandırma sistemi ilə təchiz olunmuşdur. Eyni zamanda Gəncəyə Bakıdan dəmir yolu xətti də tam modernləşdirilib. İndi xəttə sürətli qatarlar da buraxılıb. Dünyanın aparıcı İsveçrə şirkəti tərəfindən istehsal edilən bu qatarlar həm vaxt baxımından çox əlverişlidir, həm də ki, komfortludur. Bu, əlbəttə ki, insanların rahatlığı üçün də çox önəmli bir məsələdir. İndi avtomobil yolu ilə rahat gəlmək olur. Hava məkanı qonaqlar, Azərbaycan vətəndaşları üçün müasir səviyyəyə uyğundur. Bəli, qeyd etdiyimiz bütün bunlar ölkənin əsas infrastruktur layihələridir. Onlar həll olunmadan şəhərin inkişafından söhbət gedə bilməzdi. Artıq, bu məsələlər öz həllini tapmışdır. Bununla paralel olaraq, Gəncədə səhiyyə, təhsil, mədəniyyət və idman sahəsində böyük addımlar atılmışdır. Belə ki, bütün sosial infrastruktur yenilənib. Səhiyyə müəssisələri təmir olunub, təkmilləşdirilib. Gəncədə 245 çarpayılıq şəhər xəstəxanası demək olar ki, yenidən tikilib və əlavə 200 çarpayılıq modul tipli xəstəxana quraşdırılıb. Xəstələrin qəbulu və müalicəsi üçün maksimum şərait yaradılıb. Şəhərdə 30-dan çox məktəb tikilib və təmir edilib. Böyük əhəmiyyətə malik, aqrar sahəyə mütəxəssis yetişdirən yeganə Azərbaycan Dövlət Aqrar Universitetinin müasir iki yataqxanası istifadəyə verilib. Tələbələr üçün maksimum şərait yaradılıb. Gəncə Dövlət Universitetində də müasr tipli yataqxanalar istifadəyə verilmişdir. Gəncənin mədəni həyatı çox zəngindir. Möhtəşəm Dövlət Filarmoniyasının və Dövlət Dram Teatrının yeni binası sakinlərin ixtiyarındadır. Personal və tamaşaçılar üçün maksimum şərait var. Gəncə şəhəri qonşu rayonlar üçün olduqca əhəmiyyətlidir. Belə ki, bütün infrastrukturlar buradan keçir. Bildiyimiz kimi, işğaldan azad olunmuş rayonlara hələ ki, buradan getmək mümkündür. Belə ki, Kəlbəcərə yeganə, yəni, rahat gedə biləcəyimiz yol Gəncədən Göygölə, Göygöldən Kəlbəcərədir. Yaz-yay mövsümlərində o yoldan rahat istifadə edilir, amma, qış aylarında yol həm bəzi yerlərdə keçilməz, həm də çox təhlükəli olur. Bu yol faktiki olaraq sovetlər vaxtında olmayıb, bir cığır olub. Artıq az bir zaman kəsiyində, o cığır genişləndirildi və Murovdağının altından uzunluğu təqribən 12 kilometr olan tunel çəkilir. Yəni Kəlbəcərin gələcək inkişafı, vətəndaşların oraya qayıtmaları, Kəlbəcər və Laçın rayonunun təchizatı böyük dərəcədə bu bölgədən asılı olacaq. Hazırda sərhəd boyunca yerləşən postlarımıza əsas təchizat buradan gedir. Bu baxımdan, Gəncə və Gəncənin ətrafında yerləşən ərazilərin bundan sonra da ölkəmizin həyatında, xüsusilə azad edilmiş torpaqların həyatında xüsusi rolu olacaqdır.

Məlumdur ki, İkinci Qarabağ müharibəsi dövründə təcavüzkar və bədnam düşmənin silahlı qüvvələri gecə vaxtlarında, sakinlərin yatdığı bir vaxtda Azərbaycan xalqına qarşı növbəti dəhşətli və insanlıqdan uzaq cinayət törətdi. Ermənistan hərbçiləri çox təhlükəli raket sistemindən istifadə edərək, Gəncədə insanların sıx yaşadığı ərazini gecə saatlarında həm "Toçka-U", həm "SCUD" raketləri ilə atəşə tutdu. Şəhərə 13 raket atıldı, onlardan 8-i partlayaraq insanların həyatına son qoydu. Gəncə şəhəri hərbi əməliyyatların getdiyi yerdən 60 kilometr aralıda yerləşsə də, bu şəhərin raket zərbələrinə məruz qalması beynəlxalq hüququn kobud şəkildə pozulmasıyla bərabər, düşmən ölkənin çirkin məqsədlərindən xəbər verir. Gəncənin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması nəticəsində 1000-dən artıq fərdi yaşayış evi qismən zədələnmiş və ya tamamilə dağıdılmışdır. Amma Azərbaycan xalqı, hətta bu dağıntılar altından çıxan, qanın içində olan, öz yaxınlarını itirmiş insanlar da erməni faşizminin təxribatına sinə gərdilər. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə cəsur Azərbaycan Ordusu günahsız insanların, şəhidlərimizin qisasını döyüş meydanında aldı. Ermənistan diz çökdü, məğlub oldu, ədalət bərpa olundu. Ölkə Prezidenti Gəncəyə növbəti səfəri çərçivəsində erməni terrorçuları tərəfindən raket hücumları nəticəsində yerlə-yeksan olmuş ərazini ziyarət etdi, həlak olmuş dinc sakinlərin xatirə guşəsinin önünə gül dəstəsi qoydu və qeyd etdi ki, "Bu gün, burada təməlini qoyduğum Memorial Kompleks böyük ərazini əhatə edəcək. Bu Memorial Kompleks təqribən dörd hektarda yaradılacaq. Dağıdılmış bu binalar olduğu kimi qalacaq. Yəni bu yaddaş silinməməlidir. Bu erməni vəhşiliyini unutmamalıyıq. Müharibə başa çatıb. Bəli, biz deyirik ki, sülh olmalıdır. Ancaq heç vaxt erməni vəhşiliyini, erməni faşizmini unutmamalıyıq. Xocalı qurbanlarını unutmamalıyıq. Gəncə qurbanlarını, digər şəhərlərimizin qurbanlarını heç vaxt unutmamalıyıq və unutmayacağıq". Ölkə başçısı eyni zamanda, faşizm ideologiyasının daşıyıcısı olan erməni cəlladı Qaregin Njde haqqında öz fikirlərini bildirdi: "Ancaq o da həqiqətdir ki, ilk dəfə olaraq, bu məsələni siyasi müstəviyə gətirən mən olmuşam. Mən əvvəlki illərdə də dəfələrlə bu erməni faşistləri haqqında öz çıxışlarımda məsələ qaldırmışdım. Beynəlxalq təşkilatlar qarşısında, ölkələr qarşısında məsələ qaldırmışdım ki, faşistlərin qəhrəmanlaşdırılmasına imkan vermək olmaz. Cəllad Njde ilə bağlı mən MDB Zirvə görüşünün birində öz çıxışımda məsələni qaldırdım. Dedim ki, Njdeyə Ermənistanın paytaxtında - İrəvanda qoyulan abidə faşizmin təbliğatıdır. Buna son qoyulmalıdır. Bu adam faşist olub. Bu adam cəllad olub. Bu adam günahsız azərbaycanlıların və ondan sonra İkinci Dünya müharibəsi zamanı sovet ordusunun əsgərlərini, zabitlərini qətlə yetirib". Eyni zamanda ölkə Prezidenti pis niyyətindən əl çəkməyən keçmiş Ermənistan rəhbərliyinə və radikal qüvvələrə də səsləndi: "Ermənistanın keçmiş faşist rəhbərləri, uşaq qatilləri Sarkisyan, Köçəryan baş qaldırırlar və yenə də meydan sulamağa çalışırlar. Biz onları məğlub etmişik. Onlar bizim qabağımızda diz çöküblər. Onlar tarixdə fərari kimi qalacaqlar. O cümlədən erməni xalqının tarixində Serjik Sarkisyan və Robert Köçəryan fərarilər kimi qalacaqlar".

Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədə, belə mühüm layihələrin həyata keçirilməsi, praqmatik dövlət başçısı, ölkə Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısının təzahürüdür.



**Zabit XƏLİLOV,**
**"Respublika".**